# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 01 may tarixli 15-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 01 may tarixli 15-VII FR nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissəyə aşağıdakı məzmunda 1.8 - 1.10-cu bəndlər əlavə edilsin:

“1.8. “Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi” publik hüquqi şəxsi

1.9. “Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi” publik hüquqi şəxsi

1.10. “Naxçıvan Hemodializ Mərkəzi” publik hüquqi şəxsi”;

1.2. 3-cü hissəyə aşağıdakı məzmunda 3.2 - 3.4-cü bəndlər əlavə edilsin:

“3.2. “Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri” publik hüquqi şəxsi

3.3.“Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsi

3.4. “Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası” publik hüquqi şəxsi”;

1.3. 7-ci hissənin 7.3-cü bəndində “Səhiyyənin Təminat Mərkəzi” sözləri “Səhiyyə Müəssisələrinin Təminatı Mərkəzi” sözləri ilə əvəz edilsin;

1.4. 4-7-ci hissələr müvafiq olaraq 8-11-ci hissələr hesab edilsin və aşağıdakı məzmunda 4-7-ci hissələr əlavə edilsin:

**“4. Şərur, Kəngərli və Sədərək rayonları üzrə:**

4.1. “Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsi

**5. Babək rayonu üzrə:**

5.1. "Babək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsi

**6. Culfa və Ordubad rayonları üzrə:**

6.1. "Culfa Regional Tibb Mərkəzi" publik hüquqi şəxsi

**7. Şahbuz rayonu üzrə:**

7.1. "Şahbuz Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsi".

2. "İnzibati ərazi vahidləri üzrə ailə sağlamlıq mərkəzlərinin Siyahısı"nın və "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nın təsdiq edilməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 oktyabr tarixli 133 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, " 4 " " avqust " 2025-ci il

№ 44